# Maqsud İbrahimbəyov

## QƏZƏBLİ DOVŞAN

Tərcüməçi: Əyyub Qiyas

Dovşan qapqara idi. Əvvəllər gördüyüm digər dovşanlardan başqa heç nə ilə fərqlənmirdi. Damarları görünən uzun qulaqları, çəhrayı gözləri və quyruq əvəzinə bir topa tükü vardı. Nədənsə bu dovşanın adını "Məftil" qoymuşdular. Mustik onu dəsmala büküb gətirəndə dedi. Dovşan küçədəki səs-küydən ürkməsin deyə onu dəsmala bükmüşdü. Üstəlik, Mustik onu da əlavə etdi ki, özünə qalsa, heç vaxt bu dovşanı mənə verməzdi, ancaq nənəsi şərt qoyub, deyib, evdə ya dovşan qalacaq, ya da o və Mustik. O da mehriban, qoca nənəsini seçib.

Dovşan bir müddət evin ortasında oturdu, sonra hoppana-hopana gedib çarpayının altında gizləndi. Mustik əvvəlcədən demişdi, qorxaq dovşan olduğunu bilirdim və çalışırdım, evdə onun yanında ucadan danışmayam. Mustikdən soruşdum, dovşana yeməyə nə verə bilərəm, dedi, soğanla sarımsaqdan başqa istənilən meyvə-tərəvəzi vermək olar.

Mustik gedəndən sonra aydın oldu ki, dovşan, doğrudan da, qorxaqdır və adının nə olmasının ona ümumiyyətlə dəxli yoxdur, çünki "Məftil" deyib onu çağırsam da, mənə əhəmiyyət vermədi, yerkökü yedirtmək üçün məcbur olub çarpayının altına girəndə isə oradan çıxıb hoppana-hoppana kitab dolabının arxasında gizləndi.

O, gecələr yeyirdi, mənim çarpayının altına girməyimi görən kimi yerindən sıçrayır, gözdən uzaq bir yerə qaçırdı.

Beləliklə, dovşan mənə öyrəşmədi. Artıq onun doğrudan çox qorxaq olması ilə barışmaq istəyəndə baş verən bir hadisə dovşanımla bağlı fikirlərimi kökündən dəyişdi.

Nelka qonşuluqda yaşayırdı. Ancaq indi qara dovşanla bağlı əhvalatı danışmağa söz verdiyim üçün qonşumuz Nelka haqqında uzun-uzadı bəhs etmək fikrində deyiləm. Təkcə bunu qeyd edim ki, Nelka ömründə heç kəslə dalaşmayıb və bir də, upravdom qonşulardan kiminsə evinə gələndə o da hər ehtimala qarşı siyirmədən öz doğum şəhadətnaməsini çıxarıb hazır saxlayır.

Hə, sizə dovşandan danışım. O gün işdən tez qayıtmışdım. Adətən günün bu saatlarında evdə heç kəs olmurdu, ona görə də dəhlizi keçərkən mətbəxdən eşitdiyim qəribə səslər diqqətimi çəkdi, elə bil kimsə zarıyır, nədənsə şikayətlənirdi. Mətbəxə keçəndə heyrətdən qapı ağzında donub-qaldım. Nelka mətbəxin ortasında kətilin üstünə çıxmışdı və bir az əvvəl təsvir etdiyim səsləri çıxarırdı.

O, heyrətlə aşağı baxır, üzündən həyasızlıq yağan dovşan isə kətil ətrafında gəzişirdi. O, qəzəblə Nelkanı süzür, arabir onun ayaqlarını iyləyirdi. Adama elə gəlirdi ki, indi onları gəmirəcək. Sonra yenə kətilin ətrafında dövrə vurmağa başladı, hərdən qəzəblə pəncələrini döşəməyə çırpırdı. Deyəsən, bu tamaşa çoxdan başlamışdı, çünki o özünü çox sərbəst aparırdı və hətta mən qapını açanda cırıltıya belə məhəl qoymadı. Bu mənzərəni izləyir və yerimdən tərpənə bilmirdim. Nelka məni görən kimi susdu, amma bərəlmiş gözlərindən axan yaşı saxlamaq əlində deyildi. Bu vaxt dovşan geri çevrilib məni gördü. Kaş onun necə həyəcan keçirdiyini öz gözlərinizlə görə biləydiniz. Bəli... Heç vaxt bunu unuda bilmərəm. Sanki pərt olmuş görkəmi ilə demək istəyirdi: "Bəli, mən çox böyük axmaqlıq eləmişəm, amma mənə belə baxmaq lazım deyil".

O, utandığından iki gün yerkökü də yemədi.

Sonra gizləndiyi yerdən çıxıb mehribanlıqla mənə baxdı, yeməyini yedi və bundan sonra gəlib qarşımda dayandı. Elə bil baxışları ilə: “Hə, de görüm, başqa nə edəcəyik?” – soruşurdu.

O vaxtdan xasiyyəti çox dəyişib. Qonşuları qorxudur və hətta bəzən mənə də məhəl qoymur.

“Məftil” ləqəbini dəyişdik. İndi onun təzə adı var – Reks. Mən onun yanında “fas” söyləməyə çəkinirəm.

Hərdən üzərində “Ehtiyatlı olun!” yazılmış lövhə sifariş vermək istəyirəm, yəni mənzildə “qəzəbli dovşan” var, ancaq hələ ki qəti qərara gələ bilməmişəm. Evdən gedəndə mənzilimin qapısını kilidləmirəm, çünki Reks evdədir!